# Səyyar qəbullar



Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin noyabr ayında səyyar qəbul rayonun Laza və Mamaylı kəndlərində keçirilmişdir. Bu qəbul zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi səyyar qəbul zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbul zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**“Qəbələ səsi”**



Mamaylı kəndi



Laza kəndi

# Şəhid ailələri və qazilər evlərində ziyarət edilmişlər



Qəbələ Rayon İcra Hakimiyyətinin, idarə və müəssisələrin nümayəndələri tərəfindən 8 Noyabr – “Zəfər günü” ərəfəsində şəhid ailələri və qazilər evlərində ziyarət edilmişdir. Ziyarətçilər şəhidlərimizin əziz xatirəsinin xalqımız tərəfindən hər zaman əziz tutulduğunu, şəhid ailələrinin, qazilərin daim dövlətimizin diqqət mərkəzində saxlanıldığını qeyd etmiş və ailələrə bayram sovqatı təqdim etmişlər. Şəhidlərin ailə üzvləri və qazilər göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.



# ”Zəfər Günü“ ilə əlaqədar ümumrayon tədbiri



Qəbələ rayonunda 8 Noyabr - “Zəfər Günü” ilə əlaqədar ümumrayon tədbiri keçirilmişdir. Tədbir iştirakçıları öncə Birinci Qarabağ və Vətən müharibələrində şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış Şəhidlər Xiyabanı kompleksini ziyarət edərək, məzarlara və xatirə lövhələrinin qarşısına gül dəstələri düzmüşlər. Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların nümayəndələrinin, ziyalıların, ağsaqqalların və rayon ictimaiyyətinin iştirakı ilə keçirilən tədbirdə ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Ordu quruculuğu strategiyasının bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən çox böyük uğurla davam etməsindən, onun bir çağırışıyla dəmir yumruq kimi birləşən ordu-xalq birliyinin əzmlə mübarizə aparmasından və qalib gəlməsindən bəhs etmiş, şəhidlərə Allahdan rəhmət, şəhid ailələrinə səbr diləmiş, qazilərə can sağlığı arzulamışdır. YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov çıxış edərək bayram münasibətilə Azərbaycan xalqını təbrik etmiş, Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində böyük Zəfərin əldə olunmasında misilsiz xidmətlər göstərdiyini, xalqımızın qəhrəmanlığının heç zaman unudulmayacağını qeyd etmişdir. Şəhid valideynləri – Elmira Abdurəhmanova, Cəlil Səfərçinov və Azərbaycan Respublikasının Milli Qəhrəmanı Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova çıxışlarında müharibədə əsgər və zabitlərimizin göstərdiyi qəhrəmanlıqlardan söz açaraq, onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirmişlər. Sonda şəhər 5 saylı tam orta məktəbin şagirdlərinin “Zəfər Günü”nə həsr olunmuş şeir kompozisiyası dinlənilmişdir.

# Vətəndaş qəbulu



14 noyabr 2025-ci il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Ziyafət verilmişdir



Zəfər tarixi ölkəmizin tarixi yaddaşına qızıl hərflərlə həkk olundu. Qəhrəmanlıq salnaməsinin canlı sübutu olan 8 noyabr xalqın ən sevincli şad günüdür. Şəhidlərimizin ruhu şaddır, şəhadət yolçularının əzizləri isə qürurludur. Bu bayram onların qürur, vüqar bayramı! Elə bu münasibətlə də Qəbələ “Garden” hoteldə Qəbələ Rayon İcra Hakimiyyəti və YAP Qəbələ rayon təşkilatının birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Günü münasibətilə ziyafət verilmişdir. Şəhid ailələrinin üzvləri və müharibə əlilləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



**Fotolar S. Umuyevindir.**